# Ramiz Mirişlinin I simfoniyasında muğamın bəzi ünsürləri

İlahə Hüseynzadə,
Azərbaycan Milli Konservatoriyasının magistrantı
**E-mail:** *ilaha.huseynzada@gmail.com*

## *GİRİŞ*

Muğam – xalq musiqi təfəkkürünün əsrlərboyu cilalanmış ən gözəl yaradıcılıq məhsuludur. Dərin məna, aydın və dürüst ifadə daşıyan məntiqi qaydalara, üsullara və müəyyən musiqi sisteminə əsaslanan Azərbaycan muğam sənəti dolğun məzmuna və zəngin formalara malikdir. Bu sənət daim musiqişünasların diqqətini cəlb edib və heç vaxt öz aktuallığını itirməyən bir mövzudur. Muğamın Azərbaycan bəstəkarlarının əsərlərində xüsusi yeri vardır: elə bir bəstəkar tapılmaz ki, yaradıcılığında folklordan, milli musiqidən istifadə etməsin. Bu bəstəçilərdən biri də Ramiz Mirişlidir: demək olar ki, əsərlərinin hamısı muğamdan, folklordan bəhrələnmişdir.

Onun əsərləri özünün təkrarsızlığı, bənzərsizliyi ilə seçilərək milli musiqi mədəniyyətimizi zənginləşdirmişdir. Bəstəkarın tükənməz xalq musiqisindən qidalanan yaradıcılığı mövzu rəngarəngliyi, forma aydınlığı, musiqi dilinin səlisliyi ilə səciyyələnir. Milli musiqidən bəhrələnərək yaratdığı əsərlərində özünəməxsus dil üslubu, fərdi yazı prinsipləri, xüsusiyyətləri diqqəti cəlb edir.

Ramiz Mirişli zəngin musiqi irsi yadigar qoyub. Bu irs Azərbaycan professional musiqisinin bir çox janrlarını əhatə edir. Yaradıcılığının bir hissəsi irihəcmli simfonik əsərlərdən ibarətdir. O, simfonik musiqi sahəsində muğamlarımızdan, xalq musiqimizdən qidalanaraq bir-birindən gözəl əsərlər bəstələmişdir. Yaradıcılığa başladığı 60-cı illərdə Azərbaycan bəstəkarlıq məktəbinin ən görkəmli nümayəndələri həyatda və fəaliyyətdə idilər. Hər bir bəstəkara örnək ola biləcək bu mühit, sözsüz ki, Ramiz Mirişlinin müraciət etdiyi janrlara da təsir göstərmiş, dəstxətinin mahnı və simfonik musiqi sahəsində formalaşmasına şərait yaratmışdır. Bəlkə də onun musiqinin bu çətin janrına meyil etməsi Azərbaycanın böyük simfonist bəstəkarı Cövdət Hacıyevin yetişdirməsi olmasından, dahi sənətkardan aldığı dərslərdən qaynaqlanır.

Ramiz Mirişlinin simfonik yaradıcılığından bəhs edərkən ilk növbədə diplom işi kimi yazdığı "Simfonik poema"nı qeyd etmək lazımdır. "Simfonik poema"da özünəməxsus melodiya zənginliyi, əsl xəlqilik, parlaq orkestrləşdirmə diqqəti cəlb edir. Bu simfonik poema Dövlət Komissiyası tərəfindən bəyənilir və onun konsert üçün ifası tövsiyə olunur. Əsər Azərbaycanın Xalq artisti, dirijor Nazim Rzayevin idarəsi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrı tərəfindən ifa olunur və sonradan lentə yazılaraq radionun fonduna daxil edilir.

Ramiz Mirişli simfonik musiqi janrında axtarışlarını davam etdirərək 1963-cü ildə kamera orkestrı üçün I simfoniyasını, 1981-ci ildə tar ilə simfonik orkestr üçün "Konsert"ini yazır. Bu əsərlər bəstəkarın ən uğurlu, maraqlı və orijinal musiqi incilərindəndir. Hər iki əsərin valı Moskvanın "Melodiya" firması tərəfindən böyük tirajla buraxılmışdır.

Kamera orkestri üçün yazılmış birinci simfoniya məzmununa görə müasir dövrün ziddiyyətli, dramatik hadisələrinə, gənclərin mənəvi həyatına həsr olunub. İntellektual cəhətdən zəngin, dünyagörüşü baxımından mürəkkəb xarakterli müasir gənclik mövzusu simfoniyanın əsasını təşkil edir. Simli alətlər üçün yazılmış simfoniya 3 hissədən ibarətdir. Bəstəkarın bu əsəri təbiiliyi, səmimiliyi, emosional təsir gücü ilə seçilir. Bəstəkar simfoniyada Azərbaycan musiqisindən bəhrələnən bütün ladlara söykənərək xalq musiqisinin prinsiplərinə və müasir bəstəkar təfəkkürünə əsaslanan özünəməxsus fərqləndirici xüsusiyyət yaratmağa nail olub. Onun, demək olar ki, bütün əsərləri milli musiqi qaynaqlarına çox yaxındır. Bəstələrində xalq üslubundan gələn milli elementləri, intonasiyaları, folkloru çox asan duymaq mümkündür.

Bəstəkar belə deyir: "Bütün bu elementlər muğamı yaxşı bildiyimdən irəli gəlir və muğamat elə bir xəzinədir ki, bəstəkarlar ondan nə qədər götürsə də azalmır, əksinə, artır. Mənə elə gəlir ki, muğam İlahi tərəfindən səmadan göndərilmiş musiqidir. Bu mükəmməl musiqini yaratmaq qeyri-mümkündür".

Ramiz Mirişlinin oğlu Nazim Mirişli deyir: "Xalq musiqisinə sevgini atamdan öyrənmişəm. Professionallıq baxımından da

xalq musiqisi ilə məşğul olmağı o öyrədib. İlk dəfə mənə deyib ki, əsər bəstələyəndə gərək öz muğamlarımızdan, aşıq musiqisindən bəhrələnək. Avropa üslubu ilə xalq musiqimizdən gözəl sintez yaratmaq lazım olduğunu tövsiyə edib. Mən hələ uşaqlıqda, musiqi məktəbində oxuyarkən ilk bəstələrimi yazanda bu sözləri ondan eşitmişəm".

Kamera orkestrı üçün yazılmış simfoniyada milli köklərə, milli musiqiyə, folklora bağlılığı duyuruq. Üçhissəli simfoniya ağır tərzli müqəddimə ilə başlayır, bu mövzu əsərin dramaturji əsasını təşkil edərək epiqraf səciyyəli rəvayət xarakteri daşıyır. Musiqidəki bədii obrazlılıq, ifadə vasitələri sahəsindəki yeniliklər də simfoniyada diqqəti cəlb edir. Kompozisiya violonçel və kontrabasın "p" (piano) ifası ilə başlayır, sonradan digər alətlər də – birinci-ikinci skripkalar və alt (viola) ifaya qoşulur.

**Nümunə 1:**



Simfoniyanın I hissəsi klassik simfoniyadakı kimi bir-birinə təzad olan iki mövzunun qarşılaşdırılması üzərində qurulub. Bunlardan birincisi, əsas mövzu dramatik səciyyəlidirsə, ikinci – köməkçi mövzu lirik xasiyyət, bir qədər rəqsvarılıq prinsipi daşıyan ifadəli melodiya ilə zənginləşdirilmiş menuetdir.

Hər iki mövzu inkişaf prosesində qarşı-qarşıya qoyularaq müxtəlif rəngə boyanır, təzələnir, yeni xüsusiyyət alır. Məharətlə orkestrləşdirilmiş bu mövzuların ostinatlı, variasiyalı inkişafına, polifonik ünsürlərə, aşıq intonsiyalarına rast gəlinir ki, bütün bunlar əsərin dramaturji probleminin həllində vəhdət təşkil edir.

Birinci hissənin musiqisində temp *andante, allegro, allegretto, allegro* ardıcıllığı ilə səslənərək, hər dəfə əsərin xaraketrini dəyişərək zənginləşdirir. Musiqinin ölçüsü 4/3, 4/2, 4/4 ölçülərində dəyişir. I hissə simli alətlərin *unisson* səslənməsi, birinci skripkalar *glissando*, ikinci skripkalar *pizzikato* ifasıyla "ppp" *(piano-pianissimo)* ilə bitir.

Simfoniyanın ikinci hissəsi haqqında danışarkən onu mütləq qeyd etmək lazımdır ki, Ramiz Mirişlinin parlaq melodiyalar yaratmaq qabiliyyəti bu əsərdə janrın spesifikasını yüksək professionallıqla duyması ilə uzlaşır. Məhz ikinci hissənin əsas mövzusu insanın qəlbini təlatümə gətirən incə musiqisi ilə seçilir. İkinci hissə *attaca* ilə başlayır. Bu hissə tamamilə *lento* tempindədir.

**Nümunə 2:**




Hissənin əvvəlində birinci skripkalar yuxarı registrdə melodiyanı ifa edirlər, digər alətlər isə burada müşayiət rolunu oynayır. Skripkaların ağır tempdə ifa etdiyi melodiya sanki yüksək əxlaqi sərvət olan məhəbbəti xarakterizə edərək xatirə, düşüncə səciyyəsi daşıyır. Sadə, parlaq harmoniyalar fonunda, sərbəst improvizə ruhunda musiqi yavaş-yavaş inkişaf edir. Bu emosional ruh sonrakı inkişaf bölməsində, hətta dinamik ekspressiv kulminasiyada belə yenə də saxlanılır. Birinci skripkaların və violonçellərin solosu səslənir, bundan sonra orkestrın tutti ifasıyla "mp" *(mezzo piano)* ilə ikinci hissə tamamlanır.

III hissə – final, xalq janr lövhəsi kimi qavranılır. Bu hissə ikinci skripkaların solo ifasıyla, "vivo" tempində başlanır. Musiqini dinlədikcə mərd, şux obrazların, poetik səciyyəli lirikanın və xalq şənliyi lövhələrinin şahidi oluruq. III hissəni və sonda səslənən kodanı əvvəlki hissələrin bir növ dramaturji inkişafının optimistik yekunu saymaq mümkündür. III hissə orkestrın *tutti* ifası və "ff" *(fortissimo)* ilə parlaq şəkildə bitir.

**Nümunə 3:**





Bəstəkarın əsərində muğamın təsiri, milli musiqinin ön planda olması diqqəti cəlb edir. Simfoniyada varlığın canlı hadisələri yüksək həyəcanlı planda təsvir olunmuşdur. Hisslərin ekspressivliyi, müəyyən bir emosional vəziyyətdə dərinləşmə, emosiyaların dönə-dönə, çevik surətdə dəyişilməsi, kulminasiya – bütün bunlar: xalq musiqisi, ladı, muğam intonasiyaları ilə ifadə olunması kompozisiyaya xüsusi ovqat, gözəllik qatmışdır. Əsərdə xalq musiqisinin parlaq və spesifik xüsusiyyətləri özünü göstərir, daha çox muğamın melodik məzmununda təzahür edir. Bu, təbiidir. Çünki muğam melodik tərzli musiqidir. Bu əsərdən də şahid oluruq ki, muğam Şərq mədəniyyətinin ən böyük nailiyyətini olub bütün Şərq xalqlarının musiqisinin əsasında dayanır.

Ümumiyyətlə, Ramiz Mirişli müraciət etdiyi bütün janrlarda maraqlı mövzulara, ifadəli məzmuna üstünlük verir, əsərlərində üslubunun özünəməxsusluğu dərhal hiss olunur. Məhz bəstəkarın dərin xəlqiliyi onun yaradıcılığının əsas fərdi xüsusiyyətidir.

## Nəticə

Nəticədə onu qeyd etmək istərdim ki, muğam Şərq mədəniyyətinin ən böyük nailiyyəti olub bütün Şərq xalqlarının musiqi mədəniyyətinin əsasını təşkil edir. Buna görə də onun aspektlərinin, quruluşunun tədqiq məsələləri uzun əsrlərboyu müxtəlif müəlliflərin cild-cild tədqiqatlarının yaranmasına səbəb olmuşdur. Bu kiçik məqalədə biz mühüm hesab etdiyimiz bəzi məqamlara toxunaraq bəstəkar Ramiz Mirişlinin kamera orkestrı üçün yazdığı I simfoniyasında muğamın, xalq musiqisinin bəzi ünsürlərni qeyd etdik. Bəstəkarın yalnız bu əsəri yox, bütün yaradıcılıq boyu müraciət etdiyi janrlarda bəstələdiyi əsərlər xalq musiqisi ilə sıx bağlıdır. Ramiz Mirişli milli ruhda, milli dəyərlərlə yazıb-yaradan bir sənətkardır. ❖

**Ədəbiyyat:**

1. Azərbaycan Bəstəkarlar İttifaqı. ZEYNJ-info–2012.
2. Azərbaycan xalq musiqisinin antologiyası. IV cild: Azərbaycan muğamları və rəngləri – Bakı: 2005.
3. Bioqrafiya bankı – Ramiz Mirişli.
4. Güllü İsmayılova. Bəstəkar Ramiz Mirişli. Bakı–2000.
5. Məmmədli D. Musiqi sərhədlərini aşan bəstəkar. "Kaspi"–2015. 24 aprel. S. 21.
6. Ramiz Mirişli. "Azərbaycanım" kantatası. Bakı–2012.
7. Ramiz Mirişli. Simfoniya simli alətlər orkestrı üçün partitura. Bakı–2009.
8. Solmaz Qasımova. Lirik təranələrin təravəti. Bakı. "Ədəbiyyat və incəsənət" qəzeti, 1 aprel, 1988.
9. Мазель Л. Строение музыкальных произведений. – М., 1979

**Saytoqrafiya**

1. *http://composers.musigi-dunya.az/az/composers_m.html#ramiz*
2. *http://www.azerbaijans.com/content_285_az.html*
3. *https://az.wikipedia.org/wiki/Ramiz_Mirishli*

**Резюме**
Статья посвящена первой симфонии Рамиза Миришли. Она написана для камерного оркестра. Автор статьи рассказывает об истории создания и структуре симфонии, дает информацию о каждой части симфонии.
**Ключевые слова:** Рамиз Миришли, композитор, мугам, фольклор, симфония, народная музыка.

**Summary**
The article was dedicated to some issues of mugam in I symphony written by Ramiz Mirishli for camera orchestra.The author of the article writes down the structure and history of symphony,gives some definite information about each part of it.
**Key words:** Ramiz Mirishli, composer, mugham, folklore, symphony, national music.